# Bəlkə, sübh namazından qabaq

Əhməd Yusifzadə

بسم الله الرحمن الرحيم

Kitabın adı.....Bəlkə, sübh namazından qabaq
Müəllif:................................Əhməd Yusifzadə
Çap tarixi:..................................................2025
Çap növbəsi:...........................................Birinci
Tiraj:............................................................1000

# Ön söz

Vuruşduğu illərdə xeyir-duam onunlaydı. Qorxurdum ki, başına bir iş gələr. Özünün isə könlü başqa yerdəydi. Nəhayət, Allah onu – vuruşan bəndəsini bizdən – oturan bəndələrindən üstün tutub şəhadətlə fərqləndirdi.

Hacı Qasim üçün yazdığım ürək sözlərimdə birbaş özüylə danışacağam. Çünki onun öldüyünü zənn etmirəm.

Bu kitabı iki kişiyə təqdim edirəm: son nəfəsə qədər Qasimlə çiyin-çiyinə getmiş

Şəhid Purcəfəriyə və iyirmi üç nəfərdən biri olan dostum mərhum Məhəmməd Salehiyə. Həmin Məhəmməd ki, Bağdad hava limanında partlayış xəbərini eşidəndə xəstə idi, çətinliklə danışırdı, amma bütün gücünü toplayıb mənə dedi:

- Əhməd... Hacı Qasimdən... kitab yaz!

## Barmaq və üzük

Salam, hacı. Bu yazıları bir gün kitab kimi çap etdirmək istəyirəm; yəqin ki, səninki kimi qırmızı, tufanlı və məktəb yaradan deyil, şıltaq və maraqsız olacaq ölümümdən sonra qalacağına ümidlə. Hər halda, mənim kimi evdə oturmuş yararsız biri ilə sənin kimi qırx ildir ayağından çəkmə çıxmayan bir mücahid arasında fərq olmalıdır.

"Siz qəhrəmanlıq bəstələdiniz, bizsə sizin adınıza yalnız mahnı bəstələyib pul qazandıq!" (Səid Biyabanəki)

O qərib gecədən, barmağının və üzüyünün internet səhifələrini doldurduğu o dəhşətli səhərdən səkkiz ay keçir.

O xəbəri eşidənə qədər cəmi bir dəfə elə belsındıran qəm yaşamışdım. Mosul-2 əsir düşərgəsinin 13-cü kamerasında oturub dostum Əli Hadi ilə Quran əzbərləyirdim. Xuzistanlı əsir Fərşid Fəttahi yaşlı gözlərlə gəlib İmam Xomeyninin vəfat etdiyini söylədi. Xəbəri bir İraq qəzetində oxumuşdu. O anda və sonrakı gecə və gündüzlərdə bütün iyirmiillik ömrüm qədər ağladım.

Bir dəfə də gecə vaxtı barmağını və üzüyünü gördüm. Bütün İran xalqı kimi mənim halım da bərbad idi. Hətta korpusun axtarış qrupu 10 ildən sonra Ümm əl-rəsas adasının qamışlıqlarında əziz Musamın döyüşçü nişanını və cəsədini tapıb gözləri yolda qalmış

anamıza təhvil verəndə də o qədər yanmamışdım. Baxmayaraq ki, Musa ailəmizin qürur bayrağı, dürüst mömin və yanıqlı arifdi, boy-buxunu və gözəl mənəvi aurası sənin çox sevdiyin Hüseyn Yusif-İlahi kimi idi.

Bizim Musanın Ümm əl-rəsas adasında vurulub qaldığı, əməliyyatın məğlubiyyətlə nəticələndiyi və dostlarının qayıtdığı gündən korpusdan zəng edib cəsədinin qalan hissəsini, döyüşçü nişanını və gödəkcəsini gətirdikləri zamana qədər düz 10 il ötmüşdü.

O acı illər bizə və mərhum nənəmizə necə ağır keçdi! Mən səkkizillik əsirlikdən yeni qayıtmışdım, anam Rübabənin kədəri bir qədər azalmışdı. Amma zavallı qadın darıxanda anbara gedib böyük taxta sandıqdan Musanın zolaqlı köynəyini çıxarır, uşaq kimi qucaqlayıb qoxulayır, həzin-həzin oxuyurdu: "Nənəsi qurban

əziz balama! Nənəsi qurban mehriban oğluma! Nənəsi qurban ucaboy Musama!.."

Oxuyur, bulud kimi göz yaşı tökürdü. Yüngülləşəndən sonra itkin övladının köynəyini öpüb yerinə qoyurdu; növbəti qəhərə və növbəti yağıntıya qədər.

Musanın cəsədini 50-60 şəhidlə Şələmçədən Kirmana gətirib korpusa təhvil verdilər. Şəhidlərlə vida axşamında tabutların üstünə əlini çəkdin və nə qədər ağladın! Ertəsi gün qardaşımı digər şəhidlərlə birlikdə Kirmanda vida yürüşünə çıxardılar. Çox əzəmətli yürüş oldu. Sonra Faryaba aparıb Hurpasefid təpəsinin başında torpağa tapşırmaq üçün tabutumuzu özümüzə verdilər.

Musanın vətən bayrağına bürünmüş tabutuna namaz qılınandan sonra ana və qardaşları şəhidlə vidalaşsın deyə hamı kənara çəkildi. Hacı, mən yaxınlaşmadım.

Dedim ki, Musanın yaddaşımdakı son görüntüsünün uzun barmaqları, mehriban gözləri və isti nəfəsi olan, şeir deyən, şeir oxuyan və gülləri çox sevən bir cavan olmasını istəyirəm. İstəmirəm ki, qardaşımdan yaddaşımda sonsuza qədər qalacaq görüntü bir neçə sümük parçasından və cəbhə şəkillərində əynində olan mavi gödəkcənin qalıqlarından ibarət olsun. Yaxınlaşmadım və görmədim. Bilmirəm ki, sizin Söhrab da belə etdi, ya yox. Görəsən, uca dağ kimi qardaşından yanıb parçalanmış bədənlə, bir də barmaq və üzüklə kifayətlənə bildimi?

## Uzun illər öncə

Mənim səninlə ən maraqlı xatirəm, hacı can, 82-ci ilin baharına aiddir. Hekayəsini "İyirmi üç yeniyetmə" kitabında oxumusan. Cəbhəyə getmək üçün kəndimizdən Kirmana gəlmişdik. Kirman

Texniki İnstitutu onda könüllülərin cəbhəyə göndərildiyi mərkəzə çevrilmişdi. Döyüşə hazır bəsicilər vilayətin bütün rayonlarından institutun dairəvi binasına toplaşırdılar.

Cəbhəyə ezam zamanı gəlmişdi. Yaraşıqlı gənc olan və Sarəllah briqadasına rəhbərlik edən sən göstəriş vermişdin ki, hamı futbol meydanşasına toplaşsın. Əllinəfərlik qruplar şəklində çəmən üzərində oturduq. Gəlib könüllülərin arasında gəzişməyə və onları bir-bir diqqətlə süzməyə başladın. Meysəm və başqa bir neçə pasdarla birgə bizə sarı gələndə çox həyəcanlandım. Bizi ələkdən keçirməyə gəlirdin. Balacalar ələyindən düşürdülər. Azyaşlı könüllülərin hər birini sıradan çıxarıb deyirdin: “Siz buyurun, düşərgəyə gedin. İnşallah, növbəti ezamlarda sizdən istifadə olunacaq”.

Sən get-gedə yaxınlaşdıqca mənim də təşvişim yüksəlirdi. Düşünürdüm ki, Hacı Qasim niyə məni sıradan çıxarıb əməliyyatda iştirak həsrətini ürəyimdə qoymalıdır?! O kimdir ki, mənim yerimə qərar qəbul edir?! Mən müharibəlik deyildimsə, niyə birinci gün Qüds düşərgəsinə getməyimə, bir ay boyunca orada hərbi təlim keçməyimə icazə verdilər?! Əgər məni göndərməyəcəkdilərsə, təlim rəhbəri olan Yunis Zəngiabadi hansı haqla gecə saat 3-də fit çalır, bizi 4 dəqiqəyə geyinib silah-sursatla birgə düşərgənin donmuş yerində dayanmağa məcbur edirdi?! Mən uşağamsa və cəbhəyə yaramıramsa, cənab Şeyx-Bəhayi niyə cürbəcür silahları söküb-yığmağı bizə öyrədirdi?! Cənab Damğani atıcılıq poliqonunda hansı haqla o qədər tələbkarlıq edirdi?! Niyə cənab Mehrabi günorta saat 1-də bizi məcbur edirdi ki,

Sahibəzzaman dağının o tərəfində, poliqonun yanındakı geniş çöllüklərdə itmiş bir gilizi tapaq və tapmayacağımız təqdirdə nahara verilən bir neçə xurmanı da verməyəcəkləri ilə hədələyirdi?!

Ürəyim istəyirdi biləsən ki, mənim yalnız boyum bir az qısadır, əslində isə 16 yaş az deyil. Ürəyim istəyirdi ki, cürətim olaydı, qarşında dayanıb deyəydim: "Cənab Qasim Süleymani! Siz bilirsiniz ki, mən iki ay cəbhədə olmuşam?! Bilirsiniz ki, mən iraqlılardan azca aralıda qarovul olmuşam, hətta yanımdakı qəlpədən yaralanıb da?!"

Ancaq bu qədər cəsarətim yox idi. Sənsə, əziz Hacı Qasim, əyninə mənim sevdiyim formanı geymişdin. Elə görkəmin də mehriban idi. Bütün hərbçi komandirlərdən fərqli olaraq, təvazökarlıqla baxır, mehribanlıqla əmr verirdin. Eyni zamanda sıradan

çıxarılanların etirazına da məhəl qoymurdun və bu, bizi hirsləndirirdi.

Mənə yaxınlaşmışdın. Sanki sıldırımın kənarındaydım. Kaş saqqalım olaydı! Yanımdakı bəxtəvərin həm saqqalı vardı, həm bığı. O vəziyyətdə yaxamdan yapışmış yeniyetməliyi lənətləyirdim. Üzümdə bircə tük də yox idi. Dodağımın üstündə yeni çıxmış yaşıl xətt də o şəraitdə işə yaramırdı. Sən görməyəsən deyə o lənətə gəlmiş üzü yana çevirməli idim. Bəs boy? Digərlərindən bir baş-boyun qədər aşağıdaydım. Sanki darağın dişlərinin ortasından biri sınıb. Bu daraq barədə nəsə fikirləşmək lazım idi.

Çətin olsa da, dizlərim üstə bir az qalxıram; nə tam oturmuş, nə də tam qalxmış vəziyyətdə; ikisinin ortası. İstəyimə nail olmaq, yəni səni aldatmaq üçün bel çantamdan da kömək alıram. Onu sənin keçdiyin tərəfə qoymalıyam.

Boynumu da sənin baxdığın yerin əks səmtinə çevirirəm. Bu arada dəmir dəbilqənin də rolu var. Onun böyük-kiçiyi yoxdu, standart ölçüdəydi və bu, o anda mənimçün böyük bir avantaj idi.

Bu planla həm boy, həm də saqqalsızlıq problemim həll olurdu. Bircə sənin nə qədər diqqət edəcəyin qalırdı ki, onu da etməyib keçdin və mənim adım gedənlər siyahısında qaldı. Bu siyahıya görə insanlar Kirmanın dəmiryol vağzalında ayaqlarını qürurla qatarın pilləkəninə qoyub minə biləcəkdilər.

Meydançanın bir tərəfindən sıradan çıxarılanların səs-küyü gəlirdi. Onların bəzisi yaş və cüssə baxımından məndən böyük idi. Necə böyük iş gördüyümü onda bildim. Bu tərəfdə olduğuma görə özümü xoşbəxt hiss edirdim.

Sıradan çıxarılanların biri Xanukdan Salman Zadxoş idi. Onsuz da cəbhəyə

buraxılmadığına görə heç nədən qorxub çəkinmirdi. Sənin üstünə qışqırıb dedi: "Ağa Süleymani, mən bir şeyi bilmək istəyirəm: Axı siz kimsiniz ki, bizi dinimiz və ölkəmiz üçün vuruşmağa qoymursunuz?! Biz bu qədər təlim görmüşük, əziyyət çəkmişik; bizi getməyə qoymamaq, vallah, namərdlikdir!"

Salman ağlaya-ağlaya etiraz edirdi. Nəhayət, dillənib cavab verdin: "Azyaşlı uşaqlar əsir düşəndə iraqlılar onları məcbur edirlər ki, zorla cəbhəyə göndərildiklərini desinlər". Salman da eyni cəsarətlə dedi: "Əksinə, uşaqlar böyüklərdən cəsurdurlar. Bəzi iddialılar var ki, əməliyyatda qorxularından donub qalırlar. Bəli!"

Salmanla mübahisə eləməyə vaxtın yox idi. Sən getdin, yazıq Salman da gözləri yaşlı halda çəmənlikdə qaldı. Amma heç vaxt bilmədin ki, özünü nə vaxt vağzala

yetirdi və oturacaqların altında gizlənib bizimlə Əhvaza getdi.

Hacı, bağışla ki, həmin gün sözünü dinləmədik. Əlbəttə, bunun altını da çəkdik. Təxmin etdiyin kimi, əsir düşdük, çox işgəncəyə məruz qaldıq, amma zorla cəbhəyə göndərildiyimizi demədik.

## Aşiqlər yavaş-yavaş gəlirlər

Səkkiz ildən sonra, 1990-cı ilin avqustundan sentyabrına, hətta oktyabrına qədər radiodan tez-tez Şəhram Nazirinin "Aşiqlər yavaş-yavaş gəlirlər" mahnısı səsləndirilirdi. Hər gün bir qrup insan əsirlikdən gəlirdi. Hacı can, sən onda Sarəllah diviziyasının komandiri idin. Səkkizillik müharibə, həyəcan siqnalı, partlayış və dəfndən sonra vətənin ab-havası dəyişmişdi, hər bir küçə və məhəllədən musiqi və şənlik səsləri

gəlirdi. Gözəl vüsal günləri ud və üzərlik ətrinə, salam və salavata bürünmüşdü.

Yeddi, səkkiz, hətta doqquz il əsirlikdə qalıb arıqlamış, qaralmış və büzüşmüş insanlar Xosrovi sərhəd keçid məntəqəsindən ölkəyə daxil olur, vətən torpağı üzərində dostun dərgahına şükür edirdilər. Sənin qucağın da onların yorğunluğunun çıxdığı yer olmuşdu.

Görüş və ziyarətlər bitəndən sonra əsirlikdən azad olmuş bütün kirmanlıları Şəhid Behişti adına hərbi düşərgəyə dəvət etdin. Onda cəmi 34 yaşın vardı, səkkizillik müharibəni geridə qoymuşdun və xoşbəxtlikdən, yerin-göyün yaradanı şəhid olmaq üçün etdiyin gecə və gündüz dualarının heç birini qəbul etməmişdi. Bir növ təklik, dostsuzluq hissi keçirirdin. Bunları arabir etdiyin söhbətlərdən və şəhidlərin adlarını sıralayanda kövrəlməndən anlamaq olurdu.

Səninlə tez görüşmək üçün bir-birimizlə yarışa girmişdik. Yaraşıqlı idin və yaşıl korpus geyimində cazibəli görünürdün. Biz də azadlığın birinci günündəki yöndəmsiz skeletlər deyildik. Elə birinci ayda əsirliyin bütün aclıqlarını unudub analarımızın sevgi dəryasına qərq olmuş, özümüzə gəlmişdik. Səninlə şəkil çəkdirmək üçün növbəyə düzülmüşdük. Tribunaya qalxıb çıxış etdin. Bizim şəxsi həyatımızı da düşünürdün. İşləməyimiz və ailə qurmamızla bağlı tövsiyələr verdin. İncə bir məqama toxunman heç vaxt yadımdan çıxmaz: "Sizdən kimsə şəhid xanımı ilə ailə qurmaq istəyə bilər. Bu, yaxşıdır, amma çalışın yaşda sizdən böyük olmasın".

Bir müharibə komandirinin əsirlikdən qayıtmış əsgərlərinə peşəkar ailə psixoloqu kimi tövsiyə verməsi mənə qəribə gəlmişdi.

# Gedirsən

1997-ci ildə xəbər dolaşdı ki, Hacı Qasim Kirmandan gedir. Bədəni iflic olmuş müharibə əlillərini, döyüşçüləri və qürbətdən yeni gəlmiş əsirləri ağır qəhər boğmağa başladı. Sənin getdiyinə görə hamı nəinki narahat oldu, hətta hirsləndi. Hərə bir yolla çalışırdı ki, qalasan.

O günlərdə bir işdən ötrü sənin qəbuluna getmişdik. Yaşıl masanın arxasında oturmuşdun, əynində səliqəli hərbi forma vardı, qalın qaşlarının altındakı sehrli gözlərin bir-birinə qovuşmuş iki dərya kimi bizə sevgi və mehribanlıq dalğaları ötürürdü.

Mənim və yoldaşlarımın halını soruşdun. Danışdığımız yerdə bir qoca kişi bir sini çayla içəri girdi, hərənin önünə bir stəkan çay qoyub axırda sənin yanına getdi. Danışmırdı. Qocalıqdan yox, gərginlikdən əlləri titrəyirdi. Çayı önünə

qoyub gözlərini üzünə dikdi. Şikayətçi kimi gözlərini gözlərindən çəkmirdi. Cavan oğlunu danlamaq istəyən ata kimi ağır baxışlarını gözlərinə qıfıllamışdı. Sən gülümsədin. Görünür, qocanın nə demək istədiyini bilirdin; mənsə bilmirdim. Elə bildim ki, kimsə ona hörmətsizlik edib, ya da şəxsi problemi var, sənə deyib-deməməkdə tərəddüd edir. İsti əllərinlə əlini tutub sıxdın. Qoca çox kövrəldi, gözlərindən iri yaş gilələri axmağa başladı. Yəqin ki, bir zamanlar döyüşçülərindən olmuş o pak qocanın məftunluq səhnəsinə baxırdım. Qoca hıçqırtılar arasında dillənib Kirman ləhcəsi ilə dedi:

- Getmək istəyirsən, hacı?

Ayağa qalxıb onu qucaqladın və dedin:

- Başına dönüm, mən əsgərəm; komandir hara əmr etsə, əsgər də ora getməlidir.

Arıq qoca sənin iri qolların arasında doyunca ağlayandan sonra qəbul etdi ki, komandir hara əmr etsə, əsgər də ora getməlidir. Sinini götürdü və dərin köks ötürüb getdi.

Qasim can, səfər xəbərindən təsirlənərək bir neçə gündən sonra bütün kədərimi bu mətlə ilə başlayan qəzələ köçürdüm:

Demişdin qalacaqsan, amma gedirsən,
Uşaqları qəm içində qoyub gedirsən.

Şeirin digər beytləri yadımdan çıxıb, amma axırıncı misrası beləydi:

Görünür sən bizdən küsüb gedirsən.

Səninlə sağollaşma qəzəlini bir narazılıq yazısı ilə birlikdə anonim olaraq Kirmanın yerli qəzetlərindən birinə verdim. Eşitdim ki, qəzeti əlinə götürən kimi həmişəki gözəl və utancaq təbəssümünlə belə demisən: "Ya Məsud Hüseynçarinin işidir, ya da Əhməd Yusifzadənin".

# Universitet yoldaşı

Kirmanın Şəhid Bahünər adına universitetində mədəni-tərbiyəvi sahədə işlədiyimə görə sənin tələbə kartını tapmaq üçün arxivi axtarıram. Yoxdur. Mənim bu universitetdə ingilis dili və ədəbiyyatı üzrə tələbə olduğum 92-ci və ondan sonrakı illərdə sən İctimai elmlər fakültəsində təhsil alırdın. Sarəllah diviziyasının komandiri idin, amma adi bir tələbə kimi dərsə gəlib-gedirdin. Universitetdəki cəbhə uşaqlarının qayğısına da qalırdın. Bədəni iflic olan müharibə əlili Hüseynəli Məhəmmədi də qrup yoldaşın idi. Müharibədən sonra döyüşçü uşaqlar dərs, məktəb və universitet dalınca getmişdilər, diviziya komandiri ilə adi könüllü və əlil arabasında gəzən adam bir sinifdə yan-yana otururdu.

Universitetin rektoru doktor Rüstəmi Əbu Səidiyə demişdin ki, birinci mərtəbədə sol tərəfdə yerləşən, indi İctimai elmlər fakültəsinin elmi birliyinə məxsus olan otağın əlil tələbələrə və Hüseynəliyə verilməsinə dair göstəriş versin, o, əlil arabası ilə dəhlizlərdə siniflər arasında gəzməsin və növbəti dərs başlayana qədər istirahət edə bilsin. Bir dəfə dörd tələbənin Hüseynəlini əlil arabasında ikinci mərtəbəyə qaldırdığını görəndə onun kimilər üçün lift düzəldilməsi ilə maraqlandın və düzəltdilər.

Hacı, Hüseynəli 35 ildir həmin əlil arabasında gəzir. Sən gedəndə ən çox yananlar Kirmana səfərlərində gəlib çarpayılarının yanında oturduğun, hallarını soruşduğun və problemləri ilə maraqlandığın həmin əlillər idi.

2015-ci ilin məhərrəm ayında Hüseynəli Kirmandakı köməkçin İbrahim Şəhriyariyə dedi: “Hacı İbrahim, hacıya de, bir axşam bizə gəlsin. Onu doyunca görmək istəyirəm”. Şəhriyari xəbəri sənə çatdırmışdı, qərara gəlmişdin ki, səninlə görüşüb danışsın deyə gələn həftə onu görməyə gedəsən. Yazıq sevinmişdi, amma görüş gününə iki gün qalmış mobil telefonunun zəngi çalmışdı. Şəhriyari deyil, özündün. Belə demişdin: “Alo! Hüseyn can, səndən üzr istəmək üçün zəng etdim. Yəmənin vəziyyəti barədə mühüm bir toplantı olacaq, bu həftə sizə gələ bilməyəcəyəm”.[1]

Universitetin haqda danışırdım. Barmaq və üzük hadisəsindən cəmi bir neçə ay öncə səni həzrət Ayətullah Xameneinin düşüncələrinin araşdırılması seminarında çıxışa dəvət edirdik.

[1] Hüseynəli Məhəmmədi

Ofisindən bildirdilər ki, gələ bilməyəcəksən. Yəqin ki, həmişəki kimi, İraqda, Suriyada, ya da Livanda olacaqdın. Öz-özümə düşündüm ki, ağa Xamenei barədə seminar ola, Hacı Qasim gəlməyə?! Gələ bilməyəcəyin dəqiqləşəndə seminarın natiqi kimi bannerə Möhsün Rzayinin adını yazdılar. Seminar günü isə universitet cihadının uşaqları sənin şəklinlə yeni bir banner çap etdirdilər. Seminar başlayanda universitetin Vəhdət sarayının önündə dayanan Səmənd avtomobilindən Möhsün Rzayi yox, sən endin. Gülümsəyirdin, amma öz şəklini görəndə üzün ciddiləşdi. Tribunaya qalxanda da ilk sözün bu oldu: "Mən bir köçəri uşağıyam, şəklimi böyüdüm dam-divara vurmağa ehtiyac yoxdur!"

# Qasiməm

Nəcəfşəhrin bələdiyyə sədri Abbas Purxosrovani[1] məndən xahiş etmişdi ki, şəhərlərinin şəhidlərinə dair tədbirdə aparıcı olum. Boyun qaçırmaq istəyirdim, amma bir sözlə ağzımı başladı: "Hacı Qasim çıxış edəcək!"

Tədbir başladı. Nəcəfşəhr məscidi adamla dolu idi. Səni çıxışa dəvət etmək üçün bütün ədəbi hünərimi işə saldım. Bilirdim ki, belə aparıcı şıltaqlıqlarından xoşun gəlmir. Amma sən camaatın arasında oturmuşdun, mənsə yuxarıda mikrofon arxasındaydım. Gözəlliyindən ürəyim nə istədisə, dedim. Sənhəyə gələndə camaata bildirdim ki, mən hamınızın nümayəndəsi kimi Hacı Qasimin üzündən öpəcəyəm. Qucaqlaşdıq və səni doyunca öpdüm.

---

[1] Abbas Purxosrovani iyirmi üç yeniyetmə əsirdən biridir.

Çıxışın bitən kimi bir nəfər rövzə oxumağa başladı. Camaat başını aşağı salıb ağlayırdı. Sən fürsətdən istifadə edib yavaşca məclisi tərk etdin. Rövzə bitəndən sonra camaat kimi mən də necə aldandığımı bildim. Sən getmişdin, tədbirin qalanının səfası itmişdi, amma axıracan davam etdirməyə məcbur idim.

Mən onda Bəndər-Abbasda yaşayırdım. Tədbir bitəndən sonra Abbas Purxosrovani ilə sağollaşıb yola düzəldim. Hacıabada çatmamış telefonuma zəng gəldi və bir səs dedi:

- Əhməd, salam. Əllərinə sağlıq! Bağışla ki, sağollaşmadan getdim. Zəng elədim ki, tədbirə görə sənə təşəkkür edim.

Səsin kimə aid olduğunu bilmirdim. Abbas deyildi. Düşündüm ki, bəlkə, Seyrcanın icra hakimi, ya da Nəcəfşəhrin vəzifəli şəxslərindən biridir.

- Danışan kimdir? – deyə soruşdum.

- Qasiməm.

- Vay-vay! Mən səni niyə tanımadım, hacı?! Amma ad-sanı bütün dünyaya dolaşmış və dünya məzlumlarının ümid yerinə çevrilmiş bir adam mənim kimi vecsiz birinin telefonuna zəng edib sadəcə "Qasiməm" deyəndə kim tanıyar ki!

## Qaranlıq gecə və dalğa qorxusu

Hacı can, müharibədən bu qədər il ötəndən sonra vətən qəhrəmanlarını hələ də gənc nəslə tanıtdıra bilmədiyimizi görəndə adamın ürəyi ağrıyır. Məsələn, kim nə bilir ki, Həsən Yəzdani kim olub və nə edib?! Cavanlar haradan bilsinlər ki, 415-ci batalyonun komandiri olmuş faryablı yaraşıqlı gənc Hüseyn Tacik Kərbəla-5-də nə qəhrəmanlıqlar edib?! Bir neçə il qabaq səninlə dostlarının bir gecəsinin hekayəsini yazıb mediada dərc etdirdim - ehtişamlı bir gecənin və

Ərvəndin rəhmsiz dalğalarının əhvalatını. Döyüş bölgələrinə səfərimin nəticəsi olan bu real hekayəni sənin tərəfindən Şəhid Həsən Yəzdaninin uca ruhuna ithaf etdim. Sarəllah diviziyasının kəşfiyyat-diversiya bölüyündə xidmət etmiş bu gənc ruhani 1986-cı ildə soyuq qış gecələrində Vəlfəcr-8 əməliyyatını uğurla yerinə yetirmək üçün kəşfiyyat məqsədilə otuz dəfə Ərvənd çayının o tayına gedib-gəlmişdi.

Qan və xatirə illərinin hekayəsini təsvir etmək mənə və qələmimə görə deyil. Yazanda xəcalətə bənzər bir şey əlimi geri itələyir. Şəxsi heyət qaranlıq gecədə qorxunc burulğan və dalğalar altında təlatümlü Ərvənd çayına girəndə Hacı Qasimin və onun cəsur dalğıclarının iztirabının bir saniyəsini necə vəsf edə bilərəm?! Proqnozlara görə, həmin gecə külək əsməyəcək, yağış yağmayacaqdı. Lakin əməliyyata bir neçə saat qalmış

dəvətsiz bir bulud üfüqdən boylanıb səmaya yayılır. Budur, artıq həm külək əsir, həm də yağış yağır.

Dünyanın təcrübəli generalları Səddama deyiblər ki, İran sizə hər tərəfdən hücum edə bilər, bircə Favdan başqa. Onlar deyiblər ki, təlatüm dolu Ərvənd çayından heç kim keçə bilməz, dalğıcın Ərvəndə girməsi Fars körfəzinin balinalarının qarnına girməsi deməkdir; deyiblər ki, Ərvənd yaramaz çaydır, qabarma və çəkilməyə görə hərəkət istiqaməti dəyişir; deyiblər ki, Ərvənd riyakardır, suyun üstü sakit, alt qatları isə sürətlidir; deyiblər ki, Ərvənd dalğalananda qarşısında heç kim dayana bilməz və onun, ovunu 300 km sürətlə suyun dibinə dartıb udan burulğanları var. Dünya generalları bütün bunları Səddama deyiblər, amma Hacı Qasim Süleymani ilə Hacı Əhməd Əmini çayın

Əlişir qolunda öz qərarlarını veriblər. Yusif-İlahi, Atəşəfruz və onların döyüş yoldaşları isə bir qədər aralıda kəndin ərəb sakinlərindən qalmış balaca bir evdə ibadətlə məşğuldurlar.

Sarəllah diviziyasının dalğıcları belə əlverişsiz hava şəraitində Səddamın Fav cəbhəsini ələ keçirmək qərarına gəlmişlər. Hacı Qasimə tapşırılıb ki, düşmən mövqeyini ələ keçirmək üçün hava qaralanda dalğıclarını yavaş və səssizcə çaydan keçirsin. Beləliklə, Möhsün Rzayi bütün əməliyyat qüvvələrinə "Ya Fatimətüz-Zəhra" parolunu elan etsin, yüzlərlə sürətli qayıq iradəli kişilərlə birgə birdən-birə güllə kimi İraqın Fav yarımadasına doğru hərəkətə başlasın, Səddamın ordusuna hücum olunsun və dünya belə bir xəbərlə silkələnsin: İran kişiləri Ərvəndin o tayına keçib Xürrəmşəhrə qarşılıq olaraq Favı tutdular.

Artıq Ümm əl-qəsr və Bəsrə hədəflərində olacaq və İraqın azad sulara yolunu bağlayacaqlar.

Sabah bu xəbər regionun və dünyanın bütün qəzetlərinin manşetinə çıxmalıdır. Sabah Səddam bu acı məğlubiyyətdən dəli olub komandirlərini səhra məhkəməsində edam etməlidir. Lakin Hacı Qasim o tərs bulud və vaxtsız yağışla nə edə bilərdi?! Dalğıclarını başına toplayıb sakit səslə və yaşlı gözlərlə dedi: "Qardaşlar! Qorxduğumuz başımıza gəldi. Proqnoza görə, səma təmiz və Ərvənd sakit olmalı idi. Ancaq belə deyil. Ərvəndin dəli dalğalarından keçmək üçün yalnız bir yol qalıb: suyu Zəhranın (ə) sınmış böyrünə and verin!"

Həzrət Məhəmmədin Zəhrasının adı ah və göz yaşlarında çoxalıb göydə dolaşdı. Ürəklər gücləndi. Qoşun hərəkətə başladı; piyada və maşınla Ərvəndə doğru.

Dalğıclar çayın kənarındakı bataqlıqdan keçib sıraya düzülür, soyuq suya girirlər. Fırtınalı çayın təlatümü və suyun sürəti əvvəldə hamını məyus etmək istəyir. Dalğıclar bir metr irəli gedirlər, su onları iki metr geri atır. İplə bir-birlərinə birləşiblər. Hirsli suda dayanmadan ayaq döyür, amma irəli getmirsən. Dalğalarla güləşirsən, yavaş-yavaş nəfəsin tükənir, soyuqdan qolların keyiyir, ip əlindən çıxır, su dərhal səni kolondan ayırır, o qaranlıq və qorxunc gecədə boğulduğunu heç kim bilmir.

Dodaqlarında "ya Zəhra" zikri olan kişilərlə güclü və zalım çay arasında ağır döyüş gedir. Bölük öz mövqeyini itirir. Hər yerdə su, çaşqınlıq və təbii ki, ümid var. Birdən birinci adamın ayağı bərk yerə dəyir. "Ya Zəhra! Sahilə çatdıq!" Hamı sudan çıxıb səssizcə sahildə düzülür. Bu, hələ başlanğıcdır. Güclü hücumla düşmən

mövqeyini fəth eləməlidirlər. Və edirlər. Düşmənin qaçmaqdan başqa yolu yoxdur. Hacı Əhməd Əmini İraqın birinci torpaq sipəri üstündən ratsiyadan deyir: "Ya Fatimətüz-Zəhra! Ya Fatimətüz-Zəhra! Həbib, Həbib![1] Əmr yerinə yetirildi. İndi sizin növbənizdir".

O tayda, Əlişir qolunun sahilində mirvari kimi göz yaşları Hacı Qasimin döyüşçü nişanının zəncirindən tutub aşağı sürüşür. Hacı göz yaşları içində qışqırır: "Zəhra can, minnətdarıq! Bibi can, təşəkkür edirik!"

---

[1] Həbib həmin əməliyyatda Hacı Qasimin ləqəbidir.

# “İyirmi üç yeniyetmə” filmi, sənin yadigarın

Ofisindən zəng etmişdilər. Səhv etməsəm, Purcəfəri idi. Dedi ki, hacı “İyirmi üç yeniyetmə” filmini çəksin deyə İbrahim Hatəmikiyaya rəsmi məktub yazıb. Məktubun mətnini də mənə göndərdilər.

Xəbəri mediaya çıxarmaq istəmirdim. Bir neçə ay da dözdüm, amma bir jurnalistin dəqiqliyi üzündən hacının məktubu və sifarişi ağzımdan qaçdı. Ertəsi gün internet səhifələri bu xəbərlə dolub-daşdı. Hatəmikiya “Şam vaxtı” filmi, ya da başqa bir iş üzərində işləyirdi, “İyirmi üç yeniyetmə” filmini çəkə bilmədi. Bu iş, xoşbəxtlikdən, Mehdi Cəfəriyə qismət oldu. 2018-ci ilin sentyabrında dünyasını

dəyişmiş Seyid Abbasımızdan başqa hamımız ilk çəkilişə dəvət olunduq.[1]

Bağdad "İstixbarat"ını Tehranın yaxınlığında yerləşən və fəaliyyətini dayandırmış bir zavodda səhnələşdirmişdilər. İyirmi üç yeniyetmə aktyor filmin ilk kadrında oynamaq üçün qrimlənib hazırlanmışdı. Molla Saleh rolunu oynayan Səid Albu-İbadi dindirmə otağında təhlükəsizlik məmurunun iynəli suallarını cavablandırırdı. Mehdi Cəfəri başını kiçik monitora yaxınlaşdırmışdı. Bir nəfər gəlib onun qulağına dedi: "Qonağımız var".

Mehdi çəkilişi dayandırdı. "İstixbarat"ın bayırında bir neçə maşın dayandı və sən yerə endin. Mürtəza Sərhəngi, Müctəba Fəravərdə və başqa bir neçə nəfər də səninlə gəlmişdi. Gələcəyini

---

[1] 2020-ci ilin yayında iyirmi üç nəfərlik qrupumuzun daha bir üzvü Məhəmməd Salehi də dünyasını dəyişdi.

nə çəkiliş heyəti, nə həqiqi iyirmi üç nəfər, nə iyirmi üç yeniyetmə aktyor, nə də Mehdi Cəfəri bilirdi. Nə səhnəydi amma! Biz iyirmi üç nəfəri və yeniyetmə aktyorları qucaqladın, əllərində kabel olan "iraqlı əsgərləri" qucaqladın, onlara da "yorulmayasınız" dedin, keçib monitorun arxasında oturdun, qulaqcığı qulağına keçirib filmin yeni yazılmış ilk dialoqlarına qulaq asdın, yeniyetmələrlə "selfi" çəkdirdin, səksəninci illərin yeniyetmələrinin cəbhəyə getmələrindən onlara xatirə danışdın, bir qədər bizimlə qalıb hamını ruhlandırdın. Sən getmək istəyəndə əsirlikdən qayıdanların biri "İyirmi üç yeniyetmə" kitabının bir nüsxəsini gətirib onun üçün nəsə yazmanı istədi və sən cildin arxasına, Bağdad "İstixbarat"ının zindanında bir jurnalistin çəkdiyi şəklimizin üstündən təvazökar cümləni yazdın: "Siz canınızı əziz İslama

qurban vermisiniz. Mənim canım sizə qurban olsun! İmza: Qasim Süleymani”

Səni son dəfə Kirmanda görəndə dedim ki, hacı, filmin çəkilişləri bitdi, bir dəfə vaxt ayırın, gətirək, baxın. Sevinib dedin: “Allaha şükür ki, bitdi. İmkan olan kimi baxaram”. Dönüşsüz səfərindən bir neçə gün qabaq da filmin prodüseri ofisinə zəng edib demişdi ki, hacını filmə baxmağa dəvət etmək istəyirik. Demişdilər ki, indi xarici səfərdədir, inşallah, qayıdandan sonra mütləq vaxt ayırarıq.

Çox təəssüf; o fürsət yaranmadı ki, yaranmadı.

# General Süleymanidən Əhmədə

Bir may səhərində Tehranda xəstəxanada yatan, aktyor, sənətkar, habelə kimyəvi xəsarət almış müharibə əlili olan yerlimiz Rza İranməneşin üzünü öpüb aşağı düşdüm. Küçədə telefonuma zəng gəldi. Dostun idi – fəqih rəhbərin Qüds korpusundakı nümayəndəsi Hacı Əli Şirazi. Dedi ki, günorta azanında Fələstin xiyabanında qapının yanında ol. Soruşdum ki, rəhbərlə görüş var? Dedi ki, ora gəl, işin olmasın.

Getdim və günorta namazında çox sevdiyin əzizin Ayətullah Xameneiyə iqtida etmək mənə qismət oldu. Namazdan sonra bayıra çıxdıq. İmam Xomeyni hüseyniyyəsinin önündəki, iki tərəfindən tut ağaclarının kölgə saldığı xiyabanda Hacı Şirazi mənə sevindirici xəbər verdi. Dedi ki, Hacı Qasim kitabını oxuyandan sonra sənə məktub yazıb.

Sevindim. Sən mənə məktub yazmışdın; komandir əsgərə, mürşid müridə, məşuq aşiqə, general Hacı Qasim Süleymani Əhmədək Məhəd İsəfə.[1]

Səbirsizliklə cənab Şirazinin ofisinə çatdıq. Masasının siyirməsindən sənin imzan olan bir məktub çıxarıb mənə verdi. Aman Allah! Nə başlanğıcdı! Yazırdın:

“Əzizim Əhməd! Əziz rəhbərimizin alqışı və qeyd yazması məni kitabını oxumağa həvəsləndirdi. Onu oxuyandan sonra isə məqamına qibtə etdim. Təəssüf ki, mənim qovluğumda qəfəsdə keçən elə bir gecə və ya gündüz yoxdur. Sizlər həqiqi ariflər və bəndəlik məqamına çatmış abidlərsiniz. Siz zirvəyə çatmısınız. Kaş o zirvədə qala biləsiniz! Minbərdə oturmuş ilahi şəxslərin öz moizələrinin yetirmələrinə tamaşa etmələri necə

[1] Mənim kəndli adım belədir, Əhməd Məhəmməd oğlu Yusif nəvəsi deməkdir.

qürurvericidir! Kamillik axtarışında olan gənclərin düşmən qəfəsində kamilləşmiş uşaqları görməsi nə gözəldir! Kaş ölkəmizin təmtəraqlı saraylarda oturmuş səfirləri qəfəsdə saxlanmış bu səfirləri görüb səfir olmağı öyrənəydilər!

Əziz Əhməd! Kitabını oxuyanda qeyri-ixtiyari olaraq bir əsirlik səhnəsi gözlərim önündə canlandı və o əsiri xatırlayıb bu əsirin kitabına göz yaşı tökdüm. Əsirliyi əsir etmiş əsarət qəhrəmanı, qəlb və bədən yaraları ilə, qardaşlarının, qardaşı övladlarının və öz oğullarının başlarını nizələrdə görə-görə əsir aparılan, piyada, ya da çılpaq dəvələrdə oturaraq getdikləri minlərlə kilometr yol boyunca hər gün döyülən onlarla əsir qadın və uşağa başçılıq edən, ən əsas qərargahında düşmənin əzəmətini qamçılayan, atası Əlini xatırladan, qardaşı Abbasın iti qılıncı kimi düşmən qəlbinə sancdığı nitqi və ərşi

ağladan "Gözəllikdən başqa bir şey görmədim" cümləsi ilə bəşəriyyəti əbədi olaraq öz əzəmətinə heyran qoyan böyük və yorğun xanım yadıma düşdü. Kirmanlı olduğumla fəxr edirəm; düşmənin caynaqları arasında "İslam düşməni olan Səddama ölüm!" deyə qışqıran və İmam Səccad (ə) məktəbindən necə dərs aldığını göstərən Şahsüvari, qamçıların izi qalmış əti ütülənən Əmir Şahpəsəndi, əsarətdən əzəmət yaratmış Əhməd Yusifzadə, Zadxoş, Müstəqimi, Həsəni və digər qiymətli gövhərlərinə görə. Sonda sizə, bütün mücahid və şəhidlərə hörmət əlaməti olaraq, otuz ilə yaxındır o günlərin yadigarı olan çəfiyə çalını boynundan asan, bu yola, bu məram və mədəniyyətə eşqini hamıya xatırladan, sizin hər yazınızı öpən, ən yüksək fiqh, hikmət və düşüncə məqamında ən gözəl sözləri sizə ərməğan edən insana salam göndərirəm.

Biz bu kişiyə çox borclu və onsuz qaranlığıq.

Qasim Süleymani – may 2016"

## Sən əziz idin

Fərhadi dindar cavandır, adama əməliyyat axşamlarını xatırladan inqilab nəslindən. Bir tədbirdə çıxış etmək üçün məni İsfahana dəvət etmişdi. O illərdə əziz rəhbərin "İyirmi üç yeniyetmə" kitabına yazdığı qeydə görə ölkənin hər yerindən məni əsirlərin müqaviməti barədə danışmağa dəvət edirdilər.

Getdim. Tədbirdən sonra mehriban dostun Şəhid Əhməd Kaziminin məzarını ziyarət etmək üçün "Şəhidlər gülüstanı" məzarlığına getdik. Şəhid Əhməd Kazimi müharibədə o qədər fədakarlıqdan sonra təyyarə qəzasında şəhid olan gün "Rudbar zəmin" jurnalında niyə vətən qəhrəmanlarını boşuna itiririk deyə sərt

bir yazı yazmışdım. İndi isə İsfahanın "Şəhidlər gülüstanı" məzarlığına adlarını çox eşitdiyim böyük şəxsiyyətləri ziyarət etməyə gəlmişdim; Şəhid Kazimi, Şəhid Xərrazi, Şəhid Rədani, Şəhid Meysəmi.

İsfahanlı gənc Fərhadi vətən qəhrəmanlarını bir-bir mənə tanıtdırıb məzarlarını göstərdi; hamısı gənc, hamısı ucaboy, hamısı ağcaqovaq, biz faryablılar demiş, hamısı xurma gövdəsi.

Məzarlıqdan çıxıb yaxındakı məscidin önündən keçəndə Fərhadi dedi:

"Bir-iki həftə qabaq Hacı Qasimi bu məsciddə gördüm. Yəqin ki, şəhid dostlarının məzarından gəlirmiş; müşayiətsiz, mühafizəsiz, tək-tənha. Bir dostum onu göstərib dedi ki, bu kişini tanıyırsan? Uzaqdan baxıb dedim ki, Hacı Qasimə necə oxşayır! Dedi ki, mənsə, odur. Dedim ki, yox, əşi, Hacı Qasim indi ya İraqdadır, ya Suriyada, ya Livanda;

onun bizim məhəllə məscidimizdə nə işi var?! Gedib yanında oturdum, yavaşca dedim ki, bağışlayın, siz Hacı Qasimə çox oxşayırsınız. Əlimi sıxıb yanında oturtdu, dedi ki, bəli, Hacı Qasimə çox oxşayıram, amma aramızda qalsın. Yavaşca dedim ki, baş üstə, hacı, amma bir şərtim var. Soruşdu ki, nə şərti? Dedim ki, gərək sizinlə bir "selfi" çəkim. Güldü. Birinci şəkildə gözlərim yumulu düşdü. Dedim ki, hacı, bu korlandı, birini də. Yenə güldü və mən ikinci şəkli çəkdim.

Namazını qıldı. Nafiləyə başlayanda bir neçə dostuma xəbər verdim. Hacı getməyə tələsirdi, amma uşaqlar onu dövrəyə alanda hövsələ ilə dayandı, hərəm müdafiəsinə həvəsli cavanlarla yarım saat söhbət etdi və yadigar şəkil çəkdirdi. Küçədə gümüşü rəngli bir Səmənd avtomobili dayanmışdı, qısaboy bir gənc sükanın arxasında oturub hacını

gözləyirdi. Gedib mindi. Yola düzəlmək istəyəndə uşaqların biri də gəlib dedi ki, hacı, mənimlə şəkil çəkdirmədin. Gülüb maşından endi, onunla da şəkil çəkdirib getdi".[1]

Cavan bu xatirəni danışdı, amma deyəsən inanmadığımı sanıb mobil telefonunun qalereyasında Hacı Qasimlə "selfi"lərini göstərdi. Doğru deyirdi, hacı, sən əziz idin.

## Qəbul olan dua

Hacı can, bir dəfə internetdə şəklini gördüm. Döyüş bölgəsində bir yerdə dayanmışdın, arxanda partlayış tüstüləri havaya qalxırdı. Görünür, İŞİD-dən uzaqda deyildin. Həyatın üçün təhlükə hiss edib qorxdum. Oturub sənin üçün qısa bir mətn yazdım və səhifəmə yerləşdirdim:

---

[1] Məcid Fərhadi

“Hər tərəfindən partlayış tüstüsü və güllə səsi ucalan qərib bir ölkədə bu təhlükəli çöllük yerinə qəşəng bir kostyum geyib qara şüşəli bir avtomobildə əyləşə bilərdi. Qapısını sürücüsü bağlayar, gedib Tehranda bir nazirliyin ən hündür mərtəbəsində oturar, oradan göstərişlər verərdi. O zaman xanımı və övladları Həmədani kimilərin şəhadət xəbərini eşidəndə beyinlərində qorxunc təsəvvür yaranmaz, hər an onu itirəcəklərinin qorxusu ilə yaşamazdılar. Lakin o, nazir deyil, məmur deyil, diplomat deyil. O, Arəş və Abbas cinsinin qarışığıdır. O, Hacı Qasimdir”.

Postumun altından belə şərhlər yazılmışdı: “Bu fədakar və pak insanı Allah qorusun!” “O, təkcə döyüş cəbhələrinin yox, həm də qəlblərin fatehidir”; “Qəlblərin sevimlisi olan sərdara salam olsun!” Hərə bir şey

yazmışdı, bir nəfərsə mənim və sənin üçün dua etmişdi: “Allah ona şəhadət səadəti nəsib etsin! Həmçinin ağa Yusifzadəyə; inşallah, tezliklə!”

Duasının birinci hissəsi “tezliklə” qeydi ilə qəbul oldu. Hacı, son hissənin qəbulu üçün yardımına ehtiyacım var.

## Ay üzündən öpmək

Tehranın Milad qülləsində Kirman vilayətinin mədəni-turizm imkanlarına dair sərgi keçirilirdi. Tədbir axşamlarından birində mərhum Haşimi Rəfsəncani gəlib sərgiyə baxdı və çıxış etdi. Qərara alınmışdı ki, toplantı zalında keçiriləcək mədəniyyət axşamlarından birində sən çıxış edəsən. Səninçün darıxmışdım. Bilmirdim ki, ay üzündən öpməyə imkanım olacaq, ya yox. Zalda əmin oldum ki, olmayacaq; çünki bəlli bir

yerdən irəli getmək olmurdu, maneə qoymuşdular.

Əvvəldən adətim belə olub ki, səninlə görüşmək üçün çaba göstərməyim. Uca qamətinə həmişə uzaqdan tamaşa etməyi üstün tutmuşam. Məşhədə gedəndə də əsla zərihi öpməyə çalışmıram, özümü izdiham dalğasına tapşırıram. Həmin axşam da uzaqdan baxmaqla qane oldum. Beytüz-Zəhrada keçirilən əzadarlıqlarda da elə yerdə otururdum ki, səni görüm və hey baxa bilim.

Görüş həsrətinin uzandığı yerdə bir televiziya jurnalisti məni gördü, yaxınlaşıb dedi: "Çoxdandır sizi axtarıram, müsahibə almaq istəyirəm. Əgər mümkünsə, mənimlə kameranın yanına gedə bilərik?"

Ardınca yola düzəldim. Sakit bir dəhlizdən keçib müsahibə yerinə çatdıq. Cəmi bir neçə dəqiqə çəkdi. Müsahibədən

sonra həmin sakit dəhlizə keçəndə birdən mühafizəçi və dostlarının arasında qarşıdan gəldiyini gördüm. Nə əziz dəqiqələrdi, mehriban hacı! Uzaqdan qollarını açıb bərkdən dedin: "Bəh-bəh! İyirmi üç nəfərin Yusifzadəsi!"

Üzündən bir neçə isti öpüş "güman gəlməyən yerdən ruzi" kimi mənə qismət oldu. Siz zala girdiniz, mən də qayıdıb yerimdə oturdum. Həmin çıxışda yenə bizə xəcalət verib dedin: "Fəxr edirəm ki, kirmanlıyam! Fəxr edirəm ki, Şəhid Şahsüvari bizdəndir! Fəxr edirəm ki, iyirmi üç yeniyetmə bizdəndir!.."

## Elə bilirsiniz biz gedəcəyik?

İŞİD üzvlərini həmişə "daşürəkli vəhşilər" adlandırırdın. Biz yalnız baş kəsmək filmlərini görmüşdük. Adamın tükləri biz-biz olurdu. Günahsız uşağın başını kəsmək! Aman Allah!

Qəddarlıqlarını göstərmək üçün peşəkar çəkiliş qrupları vardı. Yaxşı yer seçirdilər; məsələn, narıncı geyimli əsirlər gözəl bir sahildə səliqə ilə, bir cərgədə dizi üstə oturublar, hər birinin arxasında da qara geyimli bir nəhəng əlində iri qılınc dayanıb. Kamera hərəkət edir; açıq mənzərələr, bağlı mənzərələr. Bir kamera qılıncların parıltısını çəkir, biri zavallı əsirlərin titrək dodaqlarını, biri ayaqlarına bağlanmış və yerlə sürünən zənciri, nəhayət, sonuncu kamera sahil qumlarının üstünə tökülən qan fəvvarəsini, başsız bədənləri və bədənsiz başları. Bu görüntüləri hər gün sosial şəbəkələrdə yayırdılar ki, harasa hücum edəndə heç kim müqavimət göstərməyə cürət etməsin.

Qara bayraqları İslam dünyasının böyük bir hissəsini tutmuşdu; Suriya, İordaniya, Liviya, İraq... Çox istəyirdilər

ki, bir gecə bizim qərb sərhədlərimizdən keçib, Sincarda olduğu kimi, qız və qadınlarımızı əsir tutsunlar, qul bazarında kəniz kimi satsınlar, kişilərimizin başlarını da, Riqqədə olduğu kimi, şəhərin meydanlarında sürahilərin üstünə düzsünlər. Lakin sənin adın imkan vermirdi. İran məlum məsələdir, hətta İraq Kürdüstanının lideri də Mosul işğal olunandan sonra İŞİD silahlarının səsini eşidib düşünmüşdü ki, Süleymaniyyəni yalnız Hacı Qasim Süleymani xilas edə bilər. Zəng etmişdi, sən getmişdin və İŞİD-in casusları sənin gəlişini Əbu Bəkr Bağdadiyə xəbər vermişdilər. Qəlbiqaralar ordusu sənin adını eşidən kimi geri çəkilmişdi.

Hacı can, iranlılar 2017-ci ilin yayını heç vaxt unutmazlar. Bir neçə İŞİD üzvü hansısa yolla Tehranın mərkəzinə gəlmiş, zəhərli ilan kimi İslami Şura Məclisinin

qapılarından içəri soxulmuşdu. Əziz Qasim! Mən İraqda səkkiz il əsir qaldığıma görə ərəb dilini bir az öyrənmişəm. Darağını parlamentin günahsız işçisinin üz-başına boşaldan İŞİD muzdurunun o cümləsi yadımdan çıxmaz. Nərə çəkib deyirdi: "Elə bilirsiniz biz gedəcəyik?" Deyirdi ki, elə bilirsiniz biz sərhədlərinizin arxasından gedəcəyik? Elə bilirsiniz sizdən əl çəkəcəyik?

Hacı... Hacı... İŞİD bizimçün planlar cızmışdı, amma sənin və əsgərlərinin İranı qorumaq üçün döyüş mövqelərini Dəməşqə, Laziqiyyəyə, Humsa, Xantumana və İdlibə qədər apardığını görəndə qara bayraqlı və köksüz saqqallı kişilərin Kirmanşah və İlamın prospektlərində hündür Toyota pikaplarından kolonla gəzmək ümidləri də puç oldu.

Qürbətdə o qədər qaldın ki, nəhayət, İŞİD-in işini bitirdin, kamera önünə keçib "İki aydan sonra İŞİD olmayacaq" deyə bildirdin. İnana bilmirdik, amma iki ay keçən kimi İŞİD-in tam məğlubiyyətini elan etdin.

Qasim can, o günlərdə uzaqda olduğun üçün nəcib əllərindən öpə bilmədim, amma həmişəki kimi qeyrət və mərdliyinə, iman və cəsarətinə ithaf olaraq bu mətni yazıb yaydım:

"Ay əllərinə sağlıq, kişi! Düşmənin ayağını vətən sərhədindən min kilometr uzaqda kəsdin. Sən qəlbiqaraların dövlətinin ömür şüşəsini qırdın və haramxorların vətənə yolunu bağladın. Ömrün uzun olsun!"

Sərdar, sən bu gün Nəhrəvan dəvəsini kəsdin, qara fitnə bayrağını endirdin. Allah qüvvət versin, qəhrəman! Yorulmayasan, pəhləvan!

Əziz Qasimim, bu gün yalnız biz kirmanlılar deyil, bütün iranlılar və dünyanın azad insanları əllərini sevgi ilə sıxırlar. Sən böyük insansan, ey dünyanın ən mehriban generalı! Sən təəssüb və təkfir heybətini çəkmələrin altında əzdin. Bu gün dünya böyük adını müqavimət ədəbiyyatının ən möhkəm səhifəsinə yazmalıdır.

Fəryadın həmişə yaşasın, ey kirmanlı aslan! Sən quldur çaqqallar ordusunu vətənin yaxınlığından qovdun, İslamın ağ donundan qara İŞİD ləkəsini təmizlədin.

İranlı sərdar, bu gün sənin günündür və başını Allaha qurban vermiş, əmrin altında vuruşaraq şəhadət şərbəti içmiş bütün şiə, sünni, ərəb və əcəm kişilərin günü.

Bu aydın zəfər bizə, sənə və eşq bəslədiyin komandirinə mübarək olsun!

## Bütün qəhrəmanlar şinel geymir

Kirmanda olmadığın illərdə hər hansı bəhanə ilə sənin üçün nəsə yazırdım. Bir dəfə prezident Kirmana gələndə onun yanında vilayətin veteranlarının nümayəndəsi kimi çıxış etmək mənə həvalə olundu. Kirmanın əfsanələrindən danışmaq istəyirdim və səndən əziz kim ola bilərdi?!

Dedim: "Cənab prezident, bizim Kirmana çox-çox xoş gəlmisiniz! Bu torpaqlarda böyüyüb İran tarixində böyük rol oynamış kişilərin, adları bu vətənin ölməzliyi kitabının səhifələrinə qürurla yazılmış kişi və qadınların vətəninə xoş gəlmisiniz; İran tarixinin mərdlik meydanının ortasında ağır zəncirlərdə rahat, arxayın və gümrah şəkildə oturmuş cəsur kişi Mirzə Rza Kirmanidən tutmuş iranlıların cəsarət, məhəbbət və qeyrət simvolu olan Hacı Qasimimizə qədər;

hansı ki, iranlı olub ona eşq bəsləməmək mümkün deyil. O sərdar İran xalqının rahatlığının top-tüfəng səsi ilə pozulmasını istəməyib gənc bəsicilərini və Badpa[1] kimi ağsaqqal dostlarını götürür, döyüş cəbhəsini min kilometr uzağa aparır. Şair demişkən, nə cütsüz ceyranın dizi titrəsin, nə də dərmansız və qərarsız bu ürək!"[2]

Hacı can, cənab Əbülhəsəni[3] söz vermişdi ki, nə vaxt Kirmana gəlsən, bizim üçün görüş təşkil edəcək. Biz – yəni mən və Kirmanın Şəhid Bahünər adına universitetinin Kirman Müqəddəs Müdafiə Ədəbiyyatı Birliyinin üzvləri olan altı müəllimi. Bu şirin hadisə bir gün sənin Xorşid xiyabanında Beytüz-Zəhra ilə divar-divara olan və illərdir Sarəllah

---

[1] Hərəm müdafiəsi zamanı şəhid olmuş Hüseyn Badpa
[2] Seyid Əli Salehi
[3] Kirman Vilayətinin Müqəddəs Müdafiə Dəyərlərinin Nəşri Mərkəzinin ovaxtkı icraçı direktoru

Mədəniyyət Mərkəzinə çevrilmiş qədim evinin zirzəmisində baş tutdu. Orada cəbhə səngərlərinə oxşayan bir otaq var; ətrafına qum çuvalları düzülüb, yeri əsgər ədyalları ilə döşənib. Görüş yerimiz oraydı. Oğlum Əlini də özümlə aparmışdım ki, sonralar dünyanın ən mehriban generalını yaxından gördüyünü xatirələrində yaza bilsin.

Bir neçə gündən sonra bir yerdə səninlə çəkdirdiyi şəklin altından belə yazdığını gördüm: "Bütün qəhrəmanlar şinel geymir".

Orada on beş ildir fəaliyyət göstərən ədəbiyyat birliyi və universitetimizdə keçirilən yeddi ədəbiyyat konfransı barədə çox danışdıq. Axırda bir nəfər dedi:

- Hacı, təmənnasız fəaliyyət göstərən birlik üzvlərini Kərbəla ziyarətinə dəvət etmək istəmirsiniz?

- Niyə də olmasın?! - deyə cavab verdin.

İclasdan sonra birlikdə şəkil çəkdirdik. Sən düz mənim başım üstə dayanmışdın. Mehriban əllərini başıma qoyub dedin: "Yusifzadə bizim üçün hələ də 82-ci ilin 16 yaşlı yeniyetməsidir".

Bir neçə aydan sonra universitet müəllimləri ilə birgə həzrət İmam Hüseynin (ə) məzarı yanında səninçün dua etdik. Həmin səfərdə "Uşaq əsir düşərgəsi" kitabını bitirib növbəti ildə Beytüz-Zəhrada bir nüsxəsini sənə təqdim etdim. Kitabı alıb dedin: "Həm oxuyacaq, həm də təəssüratımı yazacağam".

Yəqin ki, onu oxumağa heç vaxt macal tapmadın.

# Bir aylı gecədə sənsiz

Teleaparıcı cənab İmami Kirmana Xəbər kanalına reportaj hazırlamağa gəlmişdi. Zəng etdi, danışdıq ki, şəhidlərin məzarına, sonra da sənin doğulduğun Qənat-Məlikə gedək. Bu yazı həmin səfərin yadigarıdır:

“Sərdar, artıq neçə aydır bu uca dağın yamacında rahat yatmısan, insanlar uzaqdan-yaxından səni görməyə gəlir, kiçik məzarını qucaqlamaq üçün sıraya düzülür, şoranlığın soyuq qış çağında bahar buludu kimi göz yaşı tökürlər.

Əziz Hacı Qasim! Burada, məzarın üstə ürəklərin səması həmişə buludlu, istəyənlərinin gözü həmişə yaşlıdır. Sən getmisən, amma sanki həmişəkindən daha dirisən. Ey böyük insan! Ey dağların qəhrəman oğlu! Ey misilsiz kirmanlı cəngavər!

Burada, Kirmanın "Behişti-Zəhra" məzarlığında, Sahibəzzaman mehdiyyəsinin divarının yanında özünə bir yer nişanlayıb demişdin ki, "Hüseyn Qulamhüseyn oğlu"nun yanında olmaq istəyirəm; Hüseyn Yusif-İlahinin və digər diviziya şəhidlərinin qəbri kimi sadə qəbirdə, heç bir dünyəvi titul olmadan. Demişdin ki, məzarına "əsgər Qasim Süleymani" yazsınlar, vəssalam. Bunu elə bir adam demişdi ki, döyüş bölgələrində hərəkət edəndə Amerikanın bütün PUA və helikopterləri səmaya qalxır, dünyanın radarları marşrutunu öyrənməyə çalışırdılar; haradan gəlir və hara gedir deyə.

Biz buradayıq, "dünya ariflərinin ziyarətgahı olacaq" məzarının yanında! Biz buradayıq, təbəssümlərin üçün nə qədər darıxsaq da; İŞİD-dən geri alınmış torpaq sipər üzərində əfsanəvi

pəhləvanlar kimi poqonsuz-rütbəsiz gəzişərək atdığın möhkəm addımların üçün nə qədər darıxsaq da! Avtomatla deyil, əlin belində gəzirdin, hərəkət edən sərv kimi.

Ey adı böyük, nəfsi kiçik insan! Sənin sonsuz zirvəni bu yoxsul və cansız sözlərlə necə vəsf edə bilərəm, ey mərdlik və azadlıq dağlarının ən yüksək nöqtəsi! Yaxşı olar ki, dağı dağla baş-başa qoyub yerə enim və səni Kirmanın küçələrində axtarım; ürəklərin Məhəmməd gülünün eşqilə qiblə seçdiyi yerdə - Beytüz-Zəhrada.

"Bir aylı gecədə sənsiz yenə o küçədən keçdim!" Bu küçə addımlarının səsini bir daha eşitmək üçün hər il həsrətlə gözləyirdi. Ötən il burada demişdin ki, bu, Beytüz-Zəhraya son gəlişindir.

Tikdirdiyin Beytüz-Zəhranın divarlarında döyüş yoldaşlarının şəkilləri

var. İndi isə həm də öz şəklin var, ey Sarəllah diviziyasının Süleymanı. Bütün əzəmətinə rəğmən, bu tavanın altına girəndə böyrü sınmış xanım üçün ağlayırdın, bütün üzün islanırdı.

Ey nəfsini ram etmiş böyük insan! Sən bu torpağın hansı elindəndin ki, uca məqamından belə qeyrət və paklıq çeşmələri axırdı. Gərək bulağının qaynağını tapmaq üçün ayağımızı üzəngiyə qoyub doğulduğun yerə gedək - dövrün Rüstəminin, Arəşinin, Qudərzinin və Givinin böyüdüyü yerə.

Balaca Rabor rayonuna yola düşürük. Hündür qarlı dağların arasından keçirik. Rabor rayonu səninlə doludur, havadan sənin ətrin gəlir və bu il qarlar əriyəndə, bahar gələndə daha səni görməyəcək, amma ətrini sənin xatirənlə uzaq dərələrə yayacaq qaymaqçiçəyi güllərinin ətri. Rayonun axırıncı meydanından vətəninə -

Qənat-Məlik kəndinə doğru yola düzəlirik.

Dünya coğrafiyasının bəşər tarixinə yeni bir rəşadət və ixlas vərəqi sancmış o kiçik ərazisi buradır. Bu yerin daşla hörülmüş divarları sənin uşaqlığını xatırlayır. Sən buranın torpağını da, əhalisinin nəfəsini də sevirdin. Bu, tikdirdiyin 200 metrlik məsciddir, demişdin ki, təsir dairəsi 200 kilometr olmalıdır. Bu, dövrünün Abbası olub Peyğəmbər ailəsinin məqbərələrini İŞİD qəlbiqaralarının hücumundan qoruyasan deyə səni İmam Hüseyn eşqilə böyütmüş Məşhədi Həsən və Məşhədi Fatimə Süleymanilərin evidir.

Quran oxuyan və şeir bilən Məşhədi Həsənin və anan Fatimənin yay alaçıqlarının yeri də buradır. Onlar səndən bir neçə il qabaq hündür təpənin

başındakı yeni evlərinə köçüb Qənat-Məlik şəhidləri ilə qonşu olmuşlar.

Qasim can, bu qayalar, bu uca dağlar səni yaddan çıxarmayacaqlar. Sən o dağlar kimi bərk, möhkəm və bu bulaqlar kimi saf və axar idin".

## On ikinci çərçivə

Qənat-Məlik məscidini tikdirəndə tapşırmışdın ki, yuxarısına belə bir kətibə yerləşdirsinlər:

"Mərhəmətli və Rəhmli Allahın əfvinə ümidlə bu Allah evində namaz qılanlardan bu diyarın bütün ölənləri, yoxsul və dəyərsiz bani və onun qohumları üçün dua etmələrini və Fatihə oxumalarını rica edirəm. Dualarınızda unutmayın! Dəyərsiz bəndə Qasim Süleymani"

Qənat-Məlik kəndinin on bir şəhidinin, hər biri kətibənin üstündən yerləşdirilmiş

şəkil çərçivəsinə diqqətlə baxıram. On ikinci çərçivədə şəkil yoxdur. Yəqin ki, onu özün üçün saxlamısan. Əmin deyiləm. Məscidin xadimi olan ortayaşlı kişidən boş çərçivənin hikmətini soruşuram.

Deyir: "Biz də Hacı Qasimdən bunu kimin üçün boş qoyduğunu soruşduq. Gülümsəyib dedi ki, bununla işiniz olmasın".

Günorta namazını səndən yadigar qalmış məsciddə qılıb uşaqlıq dostlarından biri ilə söhbətə başlayırıq; Rza Dust-Məhəmmədi ilə. O, keçən günlərdən danışır, mən kövrəlirəm:

"Yayda Qasim və Söhrabla birgə qoyunları Təngəl kəndinə otarmağa aparırdıq. Bütün uşaqlar kimi bəzən nəyinsə üstə dalaşırdıq. Bir dəfə Söhrab Qasimlə dalaşdı, mən Söhrabın tərəfini saxladım və ikimiz Qasimi döydük. (Rza

bunu deyəndə kövrəlir) Davadan sonra Qasim tozlu paltarlarını çırpa-çırpa dedi: "Məni namərdcəsinə döydünüz. Siz iki nəfər idiniz, mənsə tək. Amma yadınızda qalsın, ikinizi də tək-tək tutub döyəcəyəm!"

Mən Qasimin hədəsindən qorxdum. Doğru deyirdi, bizi döyə bilərdi. Ertəsi gün qoyunları aparanda ona yaxınlaşıb dedim ki, gəl dalaşmayaq. Mehriban idi, dedi ki, anan qohumumuz olduğuna görə səni vurmayacağam. Söhrabı da bağışladı, dedi ki, amma yadınızda qalsın, məni namərdcəsinə döydünüz".

Əziz Hacı Qasim, dostunun söhbəti buraya çatanda göz yaşlarımı saxlaya bilmədim. Şəhidlik əhvalatın yadıma düşmüşdü. Bağdad hava limanında da səni namərdcəsinə, qəfildən raketlə vurdular.

Zəhranın övladlarından Məryəmin övladlarına

Salam, mehriban və qeyrətli hacı!

Bu gün Hüseynin Tasuasıdır, ələmdar gəlməyib və bu, bütün İran xalqına səni xatırladır. Bizə təhlükəsizlik suyu gətirməyə getmişdin, dövrün Şimri əmr etdi ki, Abbas kimi olmaq üçün qollarını, Hüseyn kimi olmaq üçün başını kəssinlər, Əli Əkbər kimi olmaq üçün isə bədənini parça-parça etsinlər.

Hacı, bu gün Mehdi Fədakar mənə bir səs faylı göndərdi. Hekayəsini özün bilirsən. Ortalarında ağlamağa başladı. Qəribədir, uşaqlar hələ də kövrəlmədən, ağlamadan adını çəkə bilmirlər.

Əl-Nüsrə cəbhəsinin terrorçuları Suriya şəhərlərini bir-bir tutub məsihilər yaşayan Muhrədə rayonuna çatmışdılar.

Həzrət Zeynəbin – Allahın salamı olsun ona – hərəmi İŞİD-in əlinə keçməsin,

Rüqəyyə bir daha xarabalıqda qalmasın və İŞİD bəlası ölkəmizin sərhədlərinə çatmasın deyə bəzi iranlılar övladlarını səninlə göndərmişdilər. Bəziləri də düşünürdülər ki, sizin orada nə işiniz var! Deyirdilər ki, Əsəd devriləcək, ya devrilməyəcək – bundan bizə nə?! O da Tunisin Zeynəlabidini, Misirin Mübarəki və Yəmənin Əli Abdullahı kimi biridir. Mənimsə qulaqlarımda sənin o axşam Beytüz-Zəhrada dediyin sözlər qalmışdı: "Biz öz ölkəmizə görə oradayıq!"

Doğru deyirdin, hacı, İŞİD qurdlu almaydı, sənin kimi bayraqdarlar olmasaydı, o dəhşətli və zəhərli ideologiya ilə Livanın, Suriyanın, İraqın, hətta İranın bütün almalarını çürüdəcəkdi. Sonra o cahil adamlar İslam dünyasının başçıları olacaqdılar və başımız necə bəlalar çəkəcəkdi!

Hacı, Mehdinin göndərdiyi səs faylından danışırdım. Hekayə Suriya parlamentinin məsihi deputatı Mahir Qavirmanın bir sənədli filmdə danışdığıdır:

“(Əl-Qaidənin əsas qolu və qətl və cinayətdə İŞİD-dən qat-qat betər olan) terrorçu əl-Nüsrə cəbhəsi bizim məsihilər yaşayan rayonumuzu üç tərəfdən mühasirəyə almış, rayona yüzlərlə raket atmışdı. Liderləri mənə zəng edib dedi ki, ya şəhəri boşaldın, ya da tezliklə qadın və uşaqlarınızı əsir götürəcəyik. Qadınların əsirliyi məsələsi məni çox qorxutdu. Suriyada bütün aidiyyəti məmurlara zəng edib kömək istədim. Ertəsi gün telefonum çaldı. Kimsə ərəbcə dedi ki, ustad Mahir, komandirimiz sizinlə danışmaq istəyir. O, telefonu Seyid Cavad adlı birinə verdi. Seyid Cavad dedi ki, biz iranlıyıq və sabah sizi xilas etməyə gələcəyik. Ertəsi gün Fars

diyarının Suriyada olan cavanları suriyalı gənclərə və silahlanmış biz Muhrədə sakinlərinə kömək etməyə gəldilər. Evimin bir hissəsini onlara verdim. Kəşfiyyat işlərini gördülər, gecə ikən yeganə açıq keçiddən qüvvələrini gətirdilər və mübariz ərəb gənclərin köməyi ilə terrorçuların mövqeyinə hücum edib rayonu mühasirədən çıxardılar.

Bir dəfə fars cavanların birinə dedim ki, sizin həddən artıq hörmət etdiyiniz, amma nə poqonu olan, nə də geyimi sizinlə fərqlənən bu kişi kimdir? Cavan gülüb dedi ki, o, Hacı Qasim Süleymanidir. Yaxınlaşıb onu qucaqladım, öpdüm, tanımadığıma görə üzr istəyib onu evimə şam yeməyinə dəvət etdim. Razılaşıb gəldi, masanın başında oturub yoldaşımla və uşaqlarımla ərəbcə danışdı, onları əmin etdi ki, daha heç bir təhlükə olmayacaq”.

Ruhun şad olsun, ey qeyrətli kirmanlı kişi! Biz Xalxal hədisini yalnız oxumuşuq, sənsə ona əməl etmisən. Şiə və sünnilər, müsəlman və qeyri-müsəlmanlar sənin bacı-qardaşların idilər. Əbəs deyil ki, bu günlərdə sənin qətlinə haqq qazandırmağa səbəb axtaran Pompeo "Süleymani Suriya məsihilərinə təhlükə idi" deyəndə suriyalı məsihi Hannibal Xori belə bir tvit atdı:

"Şəhid Süleymani biz məsihiləri İŞİD-dən xilas etmişdi! Vaşinqtondakı qana susamış müharibə cinayətkarlarının xoşu gəlsə də, gəlməsə də, deməliyəm ki, Süleymani olmasaydı, biz Suriya məsihiləri Amerikanın terrorçuları tərəfindən qətliam ediləcəkdik. Biz onu heç vaxt unutmayacağıq!"

Və əbəs deyil ki, İraqdan mübariz məsihi gənc Rəyan əl-Kildani[1] sənin şəhadət xəbərini eşidəndən sonra böyük ürək yanğısı ilə o möhtəşəm əhdnaməni yazmışdı.

## Rəyan əhdnaməsi

Bu gecə atamı itirdim.

Atamın ruhu sizin bədənlərinizdə idi. Siz ikiniz birlikdə mənim atamdınız.

Pasport, ad və ünvan müqavimət və mübarizənin birləşdirdiyi və şəhadətin müqəddəsləşdirdiyi şəxslər arasında ayrılıq sala bilməz. Mənim atamın ruhu olan komandirlər Şəhid Hacı Qasim və Şəhid Əbu Mehdiyə müraciətim budur:

Səninlə atasını itirmiş bir oğul yanğısı ilə danışmıram, şəhadətini cihad öyrətdiyin bir şagirdinin dili ilə təbrik

[1] İraq məsihilərinin Həşd əl-şəbinin tabeliyində olan Babiliyyun hərəkatının sədri

etmirəm, sənə dirəyi olduğun ölməz bir qrupun acısı ilə yas saxlamıram. Düşmənin xar və sənin başıuca olduğun bir zirvədə dayanmışam: maşınlarınızın külü üzərində, əlim alnımda; inana bilmirəm!

Mən sənin namazlarda etdiyin duanı eşitmişdim. Döyüş cəbhələrində onlarla dəfə dilə gətirmişdin: "İlahi! Bizə şəhadətlə minnət qoy və gözəl aqibət nəsib elə!"

Bilirəm ki, ruhun saleh, şəhid və mücahidlərlə birgə şən və sevincək halda göylərdə qanad çalır, nəğmə oxuyur.

Sən qəhrəman və cəsur komandir kimi izzət, əzəmət, cəsarət və mərdlik miniklərində əbədi cənnətlərdə gəzirsən, mənsə qəmginəm; damlarını uçmaqdan, özlərini dağılmaqdan qoruduğun kilsələrlə, hörmət və heysiyyətlərini qoruduğun, təkfirçilərin hiylələrini dəf

etdiyin keşiş, rahib, rahibə və məbədlərlə, köməklərinə gəldiyin kildani və suryani qadınlarla, bizi qorumaq və müdafiə etmək üçün gücləndirdiyin irslə birgə.

Ağlayıram, bütün millətim, bütün dostlarım və bütün torpağımla.

Ağı deyib göz yaşı axıdıram, sən illər boyu cəbhələrdə keşik çəkəndə istirahət etmiş bütün gözlərlə.

Böyük çaxnaşma və qovhaqovda kimsəsiz qalıb həyəcanlanan uşaq kimi göz yaşı axıdıram.

Mən sənin yetiminəm!

Bir İŞİD terrorçusunun əldə qılınc qapısında dayanan oğlan uşağıyam. Onlar qılıncla boyun vurur, qadınları əsir tutur, qızlara təcavüz edirdilər... O zaman sən, ey Hüseyn övladı, sən əlində həmrəylik bayrağı gəlib o iblisi yerə yıxdın və məsihiliyi himayə etdin.

Onlar kəndlərimizə başlarımızı kəsməyə gəlmişdilər, sənsə gəlib dedin ki, sizin şərəfiniz bizim şərəfimizdir.

Qonşularımız bizi satdılar, qardaşlarımız bizə xəyanət etdilər. Qürbət səhrada bizi səndən başqa qucaqlayacaq, dərdlərimizə məlhəm olacaq və qüdrətlə silahlandıracaq bir kəs olmadı.

Onlar bizi didərgin salmaq, torpaqlarımızdan qovmaq istəyəndə sən bu diyarda addımlarımızı möhkəmlətdin.

Sən mənim, bacımın və anamın kilsəsini qorudun; sən evimi və diyarımı qorudun. İndi necə səninçün ağlamayım və səndən sonrakı yetimliyimə sızlamayım?!

Mən sənin matəmində nə yazım?! Biz səndən başqayıqmı?!

Səni öldürdüklərini sandılar.

Səni bitirdiklərini zənn etdilər.

Bilmirlər ki, səni öldürməklə bizim hamımızı fəryad etməyə oyatmışlar!

Budur, bax, qardaşlarımız damarlarında coşan qəzəblə meydana çıxmışlar, zalımları taxtlarından endirmək üçün fəryad qoparırlar. Biz möhkəm və ayaqdayıq və regionun taleyini dəyişməyə gəlmişik. Çünki sən İraqın azadlığı üçün çox müqəddəs bir qurban oldun.

Sənin qanın Amerikanı buradan elə qovacaq ki, bir də heç vaxt qayıda bilməyəcək. Əfi ilan kimi torpaqlarımızda yuva salmış, həyatımızı və ev-eşiyimizi talamaqla məşğul olan ABŞ-nın başından vurmaq zamanı gəlmişdir.

Bağdad guruldayır, Neynəva zəngləri səsləndirir, Bəsrə coşur. Mübarizlərin bütün şəhər və mərkəzləri sənin adınla ayağa qalxmağa hazırlaşır.

Tezliklə intiqamın yeni dadı olacaq. Tezliklə dünya görəcək ki, sənin övladların bütün İraq boyu hər bir evdə

arxanca oyadıb qulağı səsdə saxladığın bütün oğlanlardır.

# Əli belində

Hacı can, İŞİD mövqeyinin yaxınlığında bir torpaq sipər üzərində gəzdiyin video həmişə ürəyimə od vurur. Bilirsən niyə? Çünki əlini belinə qoyub yeriyirsən. Sən şəhid olandan sonra bildim ki, belin ağrıyırmış.

Təbiidir. Yaşın altmışı ötmüşdü. Qəbul elə ki, dağlar da qocalır. Qırx il mübarizə az deyil, qardaş.

Dəməşq-Bağdad uçuşundan bir neçə həftə əvvəl Vəlfəcr-8-də müavinin olmuş Mustafa Müəzzinzadəni görmüşdün. Xəstəliyi varmış. Halını soruşandan sonra ona demişdin: "Mustafa, mənim də qolum ağrıyır, amma ona demişəm ki, dost, məni incitmə, gərək dözəsən. Xəstəliyə də demişəm ki, mənə dözməyə məcbursan".

Hacı, nə yaxşı ki, ətrafındakı bəzi adamlara qulaq asmadın. Səni prezident eləmək istəyirdilər. Bilirdilər o qədər əzizsən ki, sözsüz, seçiləcəksən. Amma bilmirdilər ki, səni ərşin üstündən çağırırlar, Sədabad sarayından yox.

2017-ci ildə sənə bir məktub gəldi. Yazan xahiş edirdi ki, prezidentliyə namizəd olasan. Gənc adamdı və sən məktubunu cavabsız qoya bilməzdin. Cavabında belə yazdın:

"Hörmətli qardaşım! Göstərdiyiniz sevgiyə görə siz əziz və dəyərli insana minnətdaram. Allaha şükür, ölkəmizdə o qədər tanınan və tanınmayan mühüm və dəyərli şəxsiyyətlər var ki, bir əsgərin postunu tərk etməsinə ehtiyac yoxdur. Mən imamın "canım qurban" dediyi bir xalqın müdafiə postunda adi əsgər olmaqla fəxr edir və canavarların pusquda

durduğu bir şəraitdə bu postu tərk etməyi xəyanət sayıram”.[1]

## Obamanın arzusu

Hacı, sən hamıdan fərqlənirdin. Mühakimələrin fərqli idi, baxışların fərqli idi.

Bir zamanlar müsəlman uşaqların xüsusi bir görkəmdə olmaları adət idi; dağınıq saç, şalvarın üstünə düşmüş enli köynək, mazlanmamış ayaqqabı... Sənsə həmişə səliqəli idin. Hələ Kirmanda olub idmançı bədəninlə Qüds düşərgəsində hərbi təlim keçdiyin günlərdə bir dəfə pasdarlar səni fərqli görkəmdə görüb təəccüblənmişdilər. Biri demişdi:

- Qasim, yenə yaraşıqlı olmusan! Qısaqol köynək?!

Gülüb demişdin:

---

[1] Höccətül-İslam Əli Şirazi

- Demək istədim ki, insanları zahiri görkəmlərinə görə dəyərləndirmək olmaz![1]

Hacı, əbəs deyildi ki, dost da, düşmən də səni sevirdi. Kim inanar ki, Barak Obama da böyüklüyünü görməzliyə vura bilmirdi. Xəbər yayılmışdı ki, Obama bir yerdə səni tərifləyib, "Kaş mənim də Süleymani kimi generalım olaydı" deyib. Döyüş yoldaşın Məhəmmədhüseyn Kərimian bir dəfə bunu özündən soruşmaq qərarına gəlib:

- Hacı, Obama sizin barənizdə nə demişdi?

Sən də hadisəni danışmışdın:

- İraqın Neft naziri Seyid Hüseyn Şəhristani İraqın Baş naziri ilə birgə ABŞ prezidenti Obama ilə görüşmüşdülər. Obama onlara demişdi ki, Qasim

[1] Əliəkbər Puriyani

Süleymani bizim düşmənimizdir, amma mənim ona xüsusi hörmətim var.

## Mən əsgərəm

Müharibə bitəndən sonra Hacı Qasim təxminən 9-10 il Kirmanda döyüşçülərin məclisinin şamı və ölkənin cənub-şərqinin problemlərini həll etməklə məşğul oldu. Diviziyadan gedib Tehrana yerləşəndə də dostlarını və Sarəllah diviziyasının döyüşçülərini bir an da yadından çıxarmadı. Hər bir bəhanə ilə rəsmi və ya qeyri-rəsmi şəkildə, xüsusi və ya ümumi toplantılar təşkil edib müharibə dövrünün dostları ilə görüşürdü. Bir dəfə novruz bayramı ərəfəsində dostlarını görmək və təbii ki, dostlarının da onu görməsi üçün hamını diviziyanın Əhvazdakı qədim düşərgəsinə topladı, döyüş bölgələrinə bir neçə günlük ümumi ekskursiya təşkil etdi. Bir dəfə dini bir münasibət bəhanəsi ilə

hamını dəvət etdi. Vilayətin müxtəlif yerlərində müxtəlif zamanlarda və müxtəlif formalarda şəhidlər üçün keçirilən anım tədbirləri də belə toplantılardan idi.

Bu unudulmaz və ümumi tədbirlərdən biri hər il Fatimiyyə günlərində iki-üç axşam evində təşkil etdiyi əza məclisidir. Ənənəvi rövzə məclislərinin çoxu kimi özü əzadarlara qulluq edirdi. Bu məclislər get-gedə məşhurlaşdı. Tehrana köçəndən sonra da harada olsaydı, hər il bu bəhanə ilə özünü Kirmana yetirib dostları ilə görüşürdü. Bir müddətdən sonra evi də funksiyasını dəyişib bu mərasimlərin keçirildiyi dini bir məkana çevrildi.

Həmişə dostların vasitəsilə şəbəkə kimi nə vaxt və harada toplaşacağımızı öyrənirdik. Fatimiyyə məclislərinin yeri və zamanı bəlli idi. Buna baxmayaraq, hər

il telefon zəngi ilə Hacı Qasimin dəvəti çatdırılırdı.

Mən işimə görə Şirazdaydım, Kirmana gedib-gəlməyim bir az çətin olurdu. Bu səbəbdən məclislərin çoxunda iştirak edə bilmirdim, Hacı Qasim də narazılıq edirdi. Bir dəfə isə dostların dəvətindən sonra qərara gəldim ki, nəyin bahasına olursa-olsun, Fatimiyyə məclisinə gedəcəyəm. Şirazdan Tehrana, oradan da Kirmana uçmağa məcbur idim; qayıdanda da oxşar şəkildə təyyarə ilə. Biletlərin zamanını uyğunlaşdırmaq da çətin olurdu. Axırda şərait elə oldu ki, mərasimin yalnız bir axşamına qala bildim. Qayıdış bileti də tapılmadı. Son anlarda bildim ki, yalnız biznes sinif bileti var və bahadır. Məcbur qalıb aldım.

Axşam Hacı Qasimin evində mərasimə qonaq olandan sonra ertəsi gün sübh çağı təyyarənin xüsusi hissəsində öz yerimdə

oturdum. Mobil telefonumda məqalə oxuduğum yerdə bir səs diqqətimi cəlb elədi. Hacı Qasim idi. Adımın sonuna "ağa" əlavə edərək məni səsləyib salam verdi. Tehrana gedirdi, axşam qayıdıb qonaqlarını qarşılayacaqdı. Mən oturmuşdum, o isə sərnişinlərin arasında ekonom sinif salonuna doğru gedirdi. Hal-əhval tutandan sonra ayağa qalxıb yerimi ona vermək istədim, amma razılaşmadı, gedib camaatın arasında öz yerində oturdu. Sərnişinlər minəndən sonra, hələ təyyarə havaya qalxmamış bələdçidən soruşdum ki, mənim yanımda kimsə oturacaq, ya yox. Cavab verdi ki, yox. Xahiş elədim ki, gedib Hacı Qasimi önə dəvət eləsin. Gülüb dedi ki, dəfələrlə etmişik, hətta pilot da ondan xahiş edib, amma heç vaxt razılaşmayıb. Elə danışdı ki, yəni otur yerində, boşuna cəhd eləmə. Özüm qalxıb arxaya Hacı Qasimin yanına

getdim, dedim ki, öndəki oturacaqlar boşdur. Onunla yanaşı uçmaq istədiyimi bildirib xüsusi salona gəlməsini istədim. Gülüb dedi: "Burda rahatam". Onun yanında oturmuş tanımadığım adamdan xahiş etdim ki, yerimizi dəyişək və mən onun yerində oturum. Mənə elə baxdı ki, necə yersiz bir xahiş etdiyimi başa düşdüm. Hacı Qasim mənim əziyyət çəkdiyimi görüb dedi: "Get yerində otur, təyyarə uçandan sonra qabağa gələrəm, danışarıq".

Uçuş başladı. Təyyarə yüksəlməni bitirəndən sonra sözünə əməl edib gəldi. Çox söhbət etdik. Hər şeydən soruşdu və mən cavab verdim; universitetin durumundan, tələbələrin ideoloji və düşüncə vəziyyətindən... Regionun və ölkənin vəziyyətindən söz düşəndə dedim:

- Hacı, fikir vermisinizmi, qarşısında sinənizi sipər etdiyiniz İŞİD-in bayrağı üzərində Allahın və Peyğəmbərin adı yazılıb?

- İŞİD düşüncəsinin batil olduğuna şübhən var? – deyə soruşdu.

- Yox; təəccüb edirəm ki, niyə İslamdan belə qəribə və şikəst övladlar doğulur. Bəlkə də, İŞİD-lə vuruşmaq nəticə ilə məşğul olmaqdır. Yaxşı olmazmı, elə bir şey düşünək ki, bu anadan bir də naxələf övlad doğulmasın?

- Bu, siz universitet və hövzə adamlarının işidir; görün nə edə bilərsiniz. Mən əsgərəm, nəzəriyyəçi və siyasətçi deyiləm. Qadın, uşaq və yaşlıların ahnaləsinə dözə bilmirəm. Kimsəsiz uşaq və qızların yalvarışı məni meydana çəkir, - dedi və İŞİD-in deyilməmiş ağır cinayətlərindən danışmağa başladı.

Səsi hələ də qulaqlarımdadır: “Mən əsgərəm!”[1]

# Böyük qurbanlıq

Hacı can, bu gün gözlərim bir amana bənddir. Axşam köhnə albomumda bir şəkil tapmışam; 1991-ci ildə Məkkədə çəkdirmişik. Sən əsirlikdən azad olanların arasında dayanmısan; əziz və mehriban, ucaboy və yaraşıqlı; mavi dama-dama köynəkdə və səfər boyu əlindən düşməyən dua kitabı ilə.

Biz o illərdə əsirlikdən təzə qayıtmışdıq. Mosul düşərgəsində əsirlərin biri bu duanı oxumuşdu: “İlahi! Hörmətli evinin ziyarətini mənə nəsib elə; bu il və hər il!”

Başqa bir əsir də gülə-gülə demişdi: “Hələ bu il get, sonrakı illərin dərdini sonra çəkərsən!”

---

[1] Məsud Hüseynçari

Çox keçmədən qəfildən azad olunduq və hamımız bir karvanla Allah evinin ziyarətinə getdik. Təsadüfən, sən də həmin il səfər yoldaşlarımızdan oldun.

Bizim kimi cavan idin. Həcc əməllərinə və dualara dair kitab əlindən düşmürdü. Bir axşam dedin ki, sabah müfrədə ümrə ziyarətinə gedək. Mən Şəhid Musamın yerinə ziyarət niyyətilə hazır olduğumu bildirdim; əsirlikdən azad olanların hər biri bir əzizinin yerinə, sən də, yəqin ki, çox sevdiyin ata-ananın yerinə. Ertəsi gün Miqat, Məşər və Minada sən yenə komandir idin, biz də arxanca əməlləri yerinə yetirirdik.

Bir gün Mədinədə birlikdə yeddi məscidin ziyarətinə getdik. Sən Fatimeyi-Zəhra – Allahın salamı olsun ona – məscidinə getmək üçün çox səbirsizlənirdin. Vəlfəcr-8-də yağış başlayanda, güclü külək əsəndə, dalğalı

Ərvəndin o tayına keçmək imkansız olanda, altıaylıq planınız yerlə bir olanda səmimi-qəlbdən dalğıclara dedin ki, suyu Zəhranın sınmış böyrünə and verib çaya girməkdən başqa çarəmiz yoxdur. Elə də etdiniz və Sarəllah diviziyası Fav mövqeyi ilə Səddamın belini qırdı.

Necə gözəl haldaydın balaca Fatimə məscidində!

Yeddi məscidi ziyarət edəndən sonra hündür bir yerdə dayanıb yadigar şəkil çəkdirdik.

Hacı, bu gün qurban bayramıdır və mən sənin üçün hədsiz dərəcədə darıxıram. Gözəl siman gözlərim önündən getmir və bu şərafətli ayə beynimdə hey təkrarlanır: "Biz ona böyük bir qurbanlıq əvəz verdik".

# Buranı imzala

Həsəni Sədi hələ cavan ikən ruhani geyimində Kirman Bəsicinin komandiri oldu. Bəmdə zəlzələ baş verdi və xurma ağaclarından başqa hər şey uçdu. Cavan şeyx əhaliyə kömək etmək üçün gedib bir neçə həftə orada qaldı. Gecə-gündüz işləməkdən yorğun halda evinə qayıdanda isə yolda avtomobil qəzasından rəhmətə getdi.

Sən onun dəfninə gəlmişdin. Şeyxin cənazəsini yenicə qəbrə qoymuş dostun Hacı Mahmud Xaliqinin qulağına dedin: "Əgər mənim də başıma bir iş gəlsə, kəfən və dəfnimin zəhmətini özün çəkərsən".

Bir neçə ildən sonra yenə Xaliqiyə demişdin: "Yadından çıxmasın, vəsiyyətnaməmdə də yazmışam ki, mənə Hacı Mahmud qüsl verib kəfənləyəcək". Sonra dualarla və məsum imamların – Allahın salamı olsun onlara – adları ilə

dolu bir parçanı Mahmuda verib əlavə etmişdin: “Buranı imzala”. Mahmud öz tərzinlə demişdi ki, ay başına dönüm, məni bu işdən uzaq tut. Sənsə uzaq tutmayıb imzasını almışdın.

Vəsiyyətnaməndə yazmışdın ki, üzüyünü kəfəninə qoysunlar. Allah bilir ki, gecə namazının qünutlarında necə mənəvi halla o üzüyə baxmışdın!

O qərib gecədə, yer üzü sənsiz qalanda Hacı Mahmud Xaliqi Seyid Əli Xameneinin əbasını qəbrinin yerinə sərir, üzüyünü bir şəhid övladının məktubu ilə birgə yanına qoyub təlqin oxuyurdu.

## Bəlkə, sübh azanından qabaq

O qəmli gün Kirman tarixinin ən acı günlərindən biri kimi yadda qalacaq. O günün bütün saniyələri əhaliyə qəm-kədər və göz yaşları içində keçdi. Dəfninə gələnlərdən 60 nəfərin məzlum ölümünün

qüssəsi ayrılığının acısına əlavə olub nəfəslərimizi kəsirdi.

Ertəsi gün gecə vaxtı yer buz parçasına dönmüşdü, göydən şaxta yağırdı. Kirmanın "Şəhidlər gülzarı" məzarlığının yuxarısındakı Sahibəzzaman dağı projektorların işığında hündür və əzəmətli görünürdü. Axşam sərdar Həsəniyə zəng edib xahiş etmişdim ki, dəfn saatından xəbəri olsa, mənə də söyləsin. Dərhal belə cavab vermişdi: "Bəlkə, sübh azanından qabaq".

Əziz xatirənlə yatıb gecə saat 3-də evdə kimsəyə söyləmədən "Şəhidlər gülzarı"na doğru getdim. Gecənin o vaxtı nə qədər adam vardı! Dəfn mərasimi ləğv ediləndən o soyuq gecəyə qədər ötmüş 15 saatdan artıq müddətdə səninlə vidalaşmadan şəhərlərinə qayıtmasınlar deyə məzarlığın qapısında dayanmış, ya da maşınlarında oturmuşdular. Polis

"Şəhidlər gülzarı"na gedən yolları hələ də bağlamışdı.

Yoxlanış postlarından birtəhər keçdim. "Hüseyn Qulamhüseyn oğlu"nun[1] məzarının ətrafını hasarlamışdılar. Ürəyim sakitləşdi. Çünki keçən gecə Kirmanda xəbər dolaşmışdı ki, səni vəsiyyət etdiyin kimi Hüseynin məzarı yanında yox, aralıdakı yaşıl qübbənin altında dəfn etmək istəyirlər.

Məni bağlı yerə buraxmadılar. Mühüm adamlar öncədən aldıqları kartla ora girə bilirdilər. Mənim kartım yoxdu, mühüm adam da deyildim. Şəhidlərin qəbirləri arasında dayandım. Qulaqlarımdakı qulaqcıqdan buşəhrli mərsiyəxanın oxuduğu yanıqlı ağını yüzüncü dəfə dinləyib ağladım.

---

[1] Şəhid Hüseyn Yusif-İlahi özünü "Hüseyn Qulamhüseyn oğlu" kimi təqdim edirmiş. Onun həyat hekayəsi eyni adlı kitabda nəşr olunmuşdur.

Səsucaldandan sənin səsini eşitdim. Camaatdan soruşurdun ki, məndən razısınız? Oradakıların hamısı bir ağızdan dilləndi: "Xudaya, biz ondan yalnız yaxşılıq görmüşük!" Səs dağa dəyib çoxaldı. Orada nə baş verdiyini bilmirdim. Görəsən, barmaq və üzük təyinat yerinə çatdımı? O əjdaha adamı, Kirmanın o böyük komandirini soyuq torpaq evinə tapşırdılarmı?

Mən bu fikirdə ikən pərdə qaldırıldı, dəfn yerindən bir kişi və bir qadını bihuş halda bayıra çıxarıb təcili yardım maşınına apardılar. Əzizlərindən iki nəfərdi, sənin torpağa girmənə tab gətirməmişdilər. Bizim acı kədər gecəmiz sənin və məbudunun şirin vüsal səhərinə çatmışdı. "Gecənin damarlarına işıq şərabı doldu",[1] Sahibəzzaman məscidinin minarələrindən gələn azan səsi soyuq və sakit dağda

[1] Simin Bəhbəhani

dolaşdı. Pərdələr kənara çəkiləndə isə sən getmişdin, həmişəlik!

Kaş anam sağ olub səninçün oxuyaydı: “Nənəsi qurban əziz balama! Nənəsi qurban mehriban oğluma! Nənəsi qurban ucaboy Qasimimə!..”

# Mündəricat

Ön söz ....................................................................3
Barmaq və üzük ........................................................4
Uzun illər öncə ..........................................................8
Aşiqlər yavaş-yavaş gəlirlər .......................................15
Gedirsən ..................................................................18
Universitet yoldaşı ....................................................21
Qasiməm .................................................................25
Qaranlıq gecə və dalğa qorxusu ................................27
"İyirmi üç yeniyetmə" filmi, sənin yadigarın ...............34
General Süleymanidən Əhmədə ................................38
Sən əziz idin .............................................................42
Qəbul olan dua .........................................................45
Ay üzündən öpmək ....................................................47
Elə bilirsiniz biz gedəcəyik? .......................................49
Bütün qəhrəmanlar şinel geymir ................................55
Bir aylı gecədə sənsiz ...............................................59
On ikinci çərçivə .......................................................64

Rəyan əhdnaməsi .......................................................72
Əli belində .................................................................77
Obamanın arzusu ........................................................79
Mən əsgərəm ...............................................................81
Böyük qurbanlıq ..........................................................87
Buranı imzala ...............................................................90
Bəlkə, sübh azanından qabaq......................................91